**Afərin Əli qızı ABBASOVA**
Qərbi Kaspi Universiteti,
Psixologiya və Sosial iş kafedrasının dosenti, psixol.ü.f.d.
E-mail: aferin.abbasova@wcu.edu.az

**Şəfiqə Ayaz qızı BABAYEVA**
Qərbi Kaspi Universiteti,
Psixologiya və Sosial iş kafedrasının magistrantı
E-mail: bshafiga2002@gmail.com

# YETKİNLİK YAŞINA ÇATMAYANLARIN DİNDİRMƏSİ PROSESİNƏ TƏSİR GÖSTƏRƏN AMİLLƏR

**Xülasə**

Yetkinlik yaşına çatmayanların dindirməsinə təsir göstərən amillər, hüquqi və psixoloji cəhətdən çox mürəkkəb və diqqətlə yanaşılması tələb edən bir sahədir. Bu şəxslərin hələ inkişaf mərhələsində olmaları, onların düşüncə və qərar vermə qabiliyyətlərinin tam formalaşmaması, dindirmə prosesində xüsusi yanaşma tələb edir.

Yaş, psixoloji vəziyyət, sosial mühit və hüquqi nümayəndənin iştirakı kimi amillər, onların ifadə vermə qabiliyyətini və prosesin etibarlılığını birbaşa təsir edir. Dindirmə zamanı yeniyetmələrin hüquqlarının qorunması, onlara doğru və açıq şəkildə hüquqi məlumat verilməsi, psixoloji dəstək və müdafiəçinin iştirakı, prosesin düzgün və ədalətli keçirilməsini təmin edir. Həmçinin, sosial dəstək və ailə münasibətləri də yeniyetmənin ifadə vermə prosesinə böyük təsir göstərir.

Bütün bu amillərin bir araya gələrək, yetkinlik yaşına çatmayanların dindirmə prosesini daha şəffaf, ədalətli və effektiv etməyə kömək edəcəyi şübhəsizdir. Dindirmə prosesinin düzgün aparılması, hüquqi ədalətin təmin olunmasında və cinayətlərin araşdırılmasında vacib rol oynayır.

**Açar sözlər:** dindirmə, cinayət prosesi, istintaq hərəkəti, psixoloji proses, şahid, zərərçəkmiş.

**UOT:**159.9
**DOİ:** https://doi.org/ 10.54414/QSGH7412

## Giriş

Yetkinlik yaşına çatmayanların dindirmə prosesi, hüquq elminin və psixologiyanın kəsişdiyi mürəkkəb və vacib bir sahədir. Bu prosesin uğurlu və ədalətli aparılması üçün bir sıra amillər nəzərə alınmalıdır. İlk növbədə, yetkinlik yaşına çatmayanların psixoloji inkişaf səviyyəsi və yaş xüsusiyyətləri onların ifadə vermə qabiliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Uşaqların və yeniyetmələrin məhdud söz ehtiyatı, abstrakt düşünmə qabiliyyətinin zəifliyi və təsir altında qalmağa meyilli olmaları onların ifadələrinin düzgün dəyərləndirilməsini çətinləşdirir. Bundan əlavə, dindirmə zamanı istifadə olunan sual formaları və ifadə tərzi də mühüm rol oynayır. Açıq və neytral suallar yetkinlik yaşına çatmayanların rahatlıqla ifadə vermələrinə imkan yaratsa da, yönləndirici və təzyiqedici suallar onların ifadələrinin etibarlılığını zədələyə bilər. Dindirmə mühitinin təhlükəsiz və stresdən uzaq olması uşaqların emosional durumunu sabit saxlamaq üçün vacibdir. Burada sosial işçilər və psixoloqların iştirakı həm uşağın psixoloji rifahının qorunmasına, həm də obyektiv məlumatların əldə edilməsinə xidmət edir. Həmçinin dindirmə prosesində audio və video yazılardan istifadə edilməsi gələcəkdə yanlış anlaşılmaların və interpretasiyaların qarşısını almağa kömək edir.

Dindirmə prosesi, hüquqi və psixoloji yanaşmaların inteqrasiyasını tələb edən həssas bir prosedurdur. Bu proses zamanı əldə edilən məlumatların dəqiqliyi və etibarlılığı, tətbiq olunan metodların elmi əsaslı olmasından asılıdır. Dindirmə zamanı ifadə verən şəxsin psixoloji vəziyyəti, yaşına və emosional durumuna uyğun yanaşmaların seçilməsi prosesi daha effektiv edir. Xüsusilə yetkinlik yaşına çatmayanlarla aparılan dindirmələrdə empatik və dəstəkləyici münasibət onların özlərini güvənli hiss etmələrinə və məlumatları daha açıq paylaşmalarına imkan yaradır. Prosesin gedişində neytral və manipulyasiyadan uzaq sualların verilməsi ifadələrin obyektivliyini təmin etməklə yanaşı, hüquqi və etik normalara uyğunluğun qorunmasına kömək edir. Bu baxımdan dindirmə prosesi yalnız məlumat əldə etmə vasitəsi deyil, həm də ədalətin təmin edilməsində vacib rol oynayan kompleks bir mexanizmdir.

**Əsas hissə**

Yetkinlik yaşına çatmayan yeniyetmələrin psixoloji xüsusiyyətləri onların ifadəvermə prosesində mühüm rol oynayır və bu xüsusiyyətlər dindirmənin effektivliyinə birbaşa təsir göstərir. Yeniyetmələrin psixoloji inkişaf səviyyəsi yaş qruplarına görə fərqlənir və onların hadisələri anlama, qiymətləndirmə və təsvir etmə qabiliyyəti yetkin insanlardan kəskin şəkildə fərqlənir. Məktəbəqədər yaşda olan yeniyetmələr konkret düşüncə tərzi ilə seçilir və abstrakt anlayışları başa düşməkdə çətinlik çəkirlər. Bu yaş dövründə hadisələri xatırlama və ardıcıllıqla təqdimetmə bacarığı məhduddur. Daha böyük yaş qrupuna aid olan yeniyetmələr isə məntiqi düşüncə və nitq bacarıqlarını inkişaf etdirmiş olsalar da, emosional qeyri-sabitlik və sosial təsirlərə qarşı həssaslıq nümayiş etdirə bilərlər. Onlar tez-tez təsdiq və qəbul olunma ehtiyacında olduqları üçün dindirmə zamanı suallara cavab verərkən sosial gözləntilərə uyğun davranmağa meyilli ola bilərlər. Bundan əlavə, travmatik hadisələrlə qarşılaşan yeniyetmələrdə qorxu və utancaqlıq səbəbindən ifadəvermə prosesi daha da çətinləşə bilər. Onların emosional reaksiyaları, stres altında yaddaşlarının bloklanması və qeyri-dəqiq ifadələr səsləndirməsi mümkündür. Eyni zamanda, yeniyetmələrin yalan danışmaqdan çəkinmədikləri hallar da müşahidə edilə bilər, çünki onlar reallıq və fantaziya arasındakı sərhədi bəzən tam olaraq ayırd edə bilmirlər.

Yeniyetmələrin nitq ehtiyatlarının məhdud olması və ifadə tərzlərinin sadəliyi onların şahidliklərindəki məlumatların yanlış interpretasiya olunma ehtimalını artırır. Yeniyetmələrin isə bəzən böyüklərin gözləntilərini doğrultmaq və təsdiqlənmək istəyi onları ifadə zamanı səmimiyyətsiz və yönləndirici cavablar verməyə sövq edə bilər. Sosial təsirlərə daha açıq olan yeniyetmələr, xüsusilə valideynlər, müəllimlər və digər nüfuzlu şəxslərin fikirlərindən asılı olaraq öz mövqelərini dəyişə bilərlər. Bu səbəbdən, onların ifadələrinin dəqiqliyini qiymətləndirərkən yaş xüsusiyyətləri, emosional vəziyyətləri və sosial təsirlərin diqqətlə araşdırılması zəruridir. Yeniyetmələrin etimad duyğusunun gücləndirilməsi, qorxu və həyəcan hallarının azaldılması, neytral və dəstəkləyici yanaşmaların tətbiq edilməsi onların daha açıq və doğru ifadə vermələrinə müsbət təsir göstərə bilər. Bu kontekstdə yeniyetmələrin ifadələrinin obyektiv və etibarlı olması üçün psixoloji xüsusiyyətlərinin dərin təhlili, eləcə də onların sosial və emosional vəziyyətlərinin düzgün qiymətləndirilməsi mühüm rol oynayır. [1, səh. 7-10]

Yeniyetmələrin dindirmə prosesində müstəqilliklərini itirməmələri üçün onlara öz mövqelərini ifadə etmək imkanı verilməlidir. Onların ifadələrini təsdiqləmək və ya inkar etmək üçün əlavə dəstək mexanizmləri yaradılır. Hüquqi prosedurlar həm də təkrar dindirmələrin minimuma endirilməsini nəzərdə tutur, çünki davamlı sorğular yeniyetmələrdə stres və qorxu yarada bilər. Ümumilikdə, dindirmə zamanı tətbiq edilən hüquqi qaydalar ədalət mühakiməsinin obyektivliyini və sosial ədaləti qorumaq məqsədilə tərtib olunur. Bu yanaşma, yeniyetmələrin hüquqlarının pozulmasının qarşısını almaq və onların dindirmə zamanı özlərini güvənli hiss etmələrini təmin etmək üçün mühüm hüquqi mexanizmlər təqdim edir.

Yeniyetmələrin dindirmə prosesinə psixoloji və sosial amillər müxtəlif aspektlərdən təsir göstərir və bu təsirlər onların ifadələrinin dəqiqliyinə və etibarlılığına birbaşa təsir edə bilər. Yeniyetmələrin emosional vəziyyəti, onların psixoloji tarazlığına və stresə qarşı dözümlülüyünə bağlı olaraq, dindirmə zamanı fərqli re-

aksiyalar göstərmələrinə səbəb olur. Stres altında olan yeniyetmələrdə qorxu, narahatlıq və yaddaşın bloklanması kimi halların baş verməsi mümkündür ki, bu da onların hadisələri tam və dəqiq şəkildə təsvir etmələrinə mane ola bilər. Sosial amillər də bu prosesdə mühüm rol oynayır, çünki yeniyetmələr çox vaxt sosial təsirlərə həssas olduqlarına görə, onları əhatə edən mühitin gözləntilərinə uyğun cavablar verə bilərlər. Valideynlərin, müəllimlərin və ya digər nüfuzlu şəxslərin təsiri altında qalaraq, onlar həqiqətə uyğun olmayan məlumatlar təqdim edə bilərlər. Bundan əlavə, yeniyetmələrin sosial statusu və ailə mühiti onların dindirmə prosesində özlərini necə aparmalarına təsir edə bilər. [3, səh. 40-44]

Ailədə zorakılıq və ya emosional problemlər yaşayan yeniyetmələr daha qapalı ola bilər və ifadəvermə zamanı qoruyucu davranışlar nümayiş etdirə bilərlər. Bu yeniyetmələr, evdəki zorakılıq və ya emosional təzyiqlər səbəbi ilə özlərini təhlükəsiz hiss etmirlər və bu, onların ifadə verməkdə çətinlik çəkmələrinə səbəb olur. Onlar, istədikləri qədər açıq və dürüst olmağa da meylli olmaya bilərlər, çünki ya təhdid edilə bilərlər, ya da keçmişdə öz hisslərini paylaşdıqlarında pis nəticələrlə qarşılaşmışlar. Məsələn, bir yeniyetmə, ailə üzvlərindən birinin fiziki zorakılığına məruz qaldıqda, bu travmalar onun etibar hissini ciddi şəkildə zədələyə bilər. Bu halda, həmin yeniyetmənin polis və ya digər səlahiyyətli şəxslərə qarşı daha qapalı və qoruyucu davranış sərgiləməsi ehtimalı yüksəkdir. O, yaşadığı zorakılığı açıq şəkildə ifadə etməkdən çəkinə bilər, çünki əgər bunu etiraf edərsə, ailə üzvlərinin daha çox qəzəbinə və ya təzyiqinə məruz qalacağından qorxur. Hətta, çox vaxt, yeniyetmələr yaşadıqları zorakılıq və təzyiqi gizlətmək üçün özlərini başqa cür aparmağa çalışır və ya sadəcə, hər hansı bir emosional vəziyyəti ifadə etməkdə çətinlik çəkirlər.

Bu cür vəziyyətlərdə, yeniyetmənin etibarını qazanmaq və ona uyğun psixoloji dəstək vermək çox önəmlidir. Ailədə zorakılıq və emosional problemlər yaşayan yeniyetmələr üçün, onlara təhlükəsiz və rahat bir mühit yaratmaq, onları müdafiə etməyə çalışan bir mütəxəssis və ya hüquqi nümayəndə ilə əlaqə qurmaq, ifadə vermə prosesində də doğru yanaşmanı tətbiq etmək vacibdir.

Eyni zamanda, sosial dəstək görən və güvən hissi ilə böyüyən yeniyetmələr daha açıq və səmimi ifadələr verə bilərlər. Sosial dəstək görən və güvən hissi ilə böyüyən yeniyetmələr, ətraflarında onları dəstəkləyən və qoruyan insanları gördükcə, özlərini daha təhlükəsiz hiss edirlər və bu da onların daha açıq və səmimi olmalarına şərait yaradır. Güvənli bir ailə və sosial mühit, yeniyetmənin öz hisslərini, düşüncələrini və təcrübələrini paylaşmağa daha meylli olmasına səbəb olur. Bu vəziyyətdə, yeniyetmələr özlərini qorunmuş və anlayışla qarşılanmış hiss edirlər, buna görə də ifadə vermə prosesində daha dürüst və açıq olurlar.

Psixoloji amillər sırasında travmatik təcrübələrin xüsusi rolu var, çünki belə hallar yeniyetmələrin yaddaşına və emosional reaksiyalarına ciddi təsir göstərə bilər. Travmadan sonra yaranan post-travmatik stres pozuntusu yeniyetmələrin yaddaşını selektiv edə bilər və onlar müəyyən detalların üzərində həddindən artıq dayanaraq digər mühüm məlumatları unutdura bilərlər. Post-travmatik stres pozuntusu (PTSP) yaşayan yeniyetmələrdə yaddaşın selektiv olması və müəyyən detallar üzərində həddindən artıq dayanmaq, travmanın psixoloji təsirlərinin bir nəticəsi ola bilər. PTSS, travmatik bir hadisənin nəticəsi olaraq, beyindəki emosional və yaddaş proseslərini dəyişdirə bilər. Bu vəziyyətdə, yeniyetmə müəyyən xatirələri və ya hadisə ilə əlaqəli detalları təkrar düşünə, hiss edə və ya "yenidən yaşaya bilər". Bu da onları daha çox travmatik hadisəyə və ya bu hadisənin bəzi təfərrüatlarına fokuslanmağa məcbur edə bilər, digər vacib məlumatları və ya hadisənin ümumi mənasını unutmalarına səbəb ola bilər. Travmatik bir hadisə, yeniyetmənin yaddaşını mühafizə edici şəkildə dəyişdirə bilər. Beyin, travmatik anı, təhlükəli və ya qorxulu bir təcrübə olaraq saxlayır və bu anla əlaqəli olan emosional yükü, travmanın təsirini azaltmaq üçün başqa düşüncələrdən ayrılmağa çalışır. Yəni, bəzi qeydlər və hisslər travmatik hadisəyə bağlanan bir növ "dəstək" kimi qalır, halbuki digər məqamlar, məsələn hadisənin başqa əhəmiyyətli təfərrüatları yaddaşdan silinə bilər. Bu "unutma" prosesi, adətən qorxudan və narahatlıqdan qaçma və ya travmanın dəhşətindən uzaqlaşma məqsədini güdür. [3, səh. 86-92]

Yeniyetmələrin diqqətini cəmləşdirməkdə çətinlik çəkmələri və asanlıqla yayına bilmələri də onların ifadələrinin ardıcıllığını poza bilər. Psixoloji dəstək və empatik yanaşma, dindirmə zamanı yeniyetmələrin qarşılaşdığı çətinliklərin aradan qaldırılmasına və onların daha açıq, səmimi və rahat şəkildə ifadə vermələrinə kömək edə bilər. Bu, xüsusilə travma yaşamış və ya emosional narahatlıq keçirən yeniyetmələr üçün vacibdir, çünki onların özlərini təhlükəsiz hiss etmələri və psixoloji olaraq dəstəkləndiklərini bilmələri, dindirmə prosesinin uğurlu olması üçün əsas şərtdir. Bu zaman tətbiq ediləcək metodlar və yanaşmalar çox diqqətlə seçilməlidir. Əvvəlcə, dindirməni həyata keçirən şəxslər, yeniyetmənin emosional vəziyyətini diqqətlə nəzərdən keçirməli və ona uyğun hərəkət etməlidir. Yeniyetmə, travma və ya stress altında olduqda, onun qarşısındakı şəxslər daha anlayışlı və şəfqətli olmalıdırlar. Dindirmə zamanı istifadə edilən dil sadə və aydın olmalı, çünki bu, yeniyetmənin hüquqlarını başa düşməsini və suallara düzgün cavab verməsini asanlaşdırar. Təzyiqdən qaçınmaq, təhqir etməmək və zorla məlumat almağa çalışmamaq əsas prinsiplərdir. Empatik yanaşma, dindirmə prosesində yeniyetməyə qarşı dürüstlük, hörmət və anlaşma ilə yanaşmağı tələb edir. Dindirmə zamanı ona qorxudan və ya təzyiqdən qaçınmaq üçün psixoloji rahatlıq yaradılmalıdır. Yəni, yeniyetməyə "Sənin burada olmaqda hər hansı bir təhlükən yoxdur" kimi sözlərlə rahatlıq verilməli və ona istənilən vaxt dindirmə prosesini dayandırma haqqı verilməlidir. Bu, yeniyetmənin güvən hissini artırar və onu daha açıq şəkildə ifadə etməyə təşviq edər.

Həmçinin, yeniyetmənin yanında psixoloq və ya müvafiq bir mütəxəssis olarsa, bu da onun psixoloji vəziyyətinə müsbət təsir göstərər. Mütəxəssis, yeniyetmənin emosional vəziyyətini qiymətləndirərək, ona uyğun psixoloji dəstək verə bilər. Bu dəstək, yeniyetmənin travmatik hadisələri və ya digər çətinlikləri daha asanlıqla ifadə etməsinə imkan tanıyır. Dindirmə zamanı, yeniyetmənin rahatlığı və təhlükəsizliyi prioritet olmalıdır. Onun ifadə verməkdə çətinlik çəkdiyini hiss edən şəxs, onu mükafatlandırmaq və ya cəzalandırmaq əvəzinə, onu dinləməli və onun psixoloji vəziyyətini daha dərindən anlamağa çalışmalıdır. Bu, dindirmənin ədalətli və səmimi şəkildə aparılmasına kömək edəcək və yeniyetmənin özünü daha çox ifadə etməsini təmin edəcək. Son olaraq, dindirmənin sonunda yeniyetməyə prosesin necə irəliləyəcəyinə dair aydın məlumat verilməli və onun rahat şəkildə evinə qayıtması təmin edilməlidir. Yəni, dindirmə yalnız hüquqi bir prosedur deyil, həm də yeniyetmənin psixoloji sağlamlığını qorumağa yönəlmiş bir proses olmalıdır. [4, səh. 60-74]

Yeniyetmələrin dindirmə prosesində istifadə edilən metodlar və testlər onların psixoloji və emosional xüsusiyyətlərini nəzərə almaqla hazırlanır və ifadələrin etibarlılığını təmin etməyə yönəlmişdir. Bu prosesdə tətbiq olunan metodlardan biri kognitiv müsahibə texnikasıdır ki, bu yanaşma yeniyetmələrin yaddaşında olan məlumatları xatırlama qabiliyyətini artırmaq məqsədi daşıyır. Kognitiv müsahibə zamanı açıq suallarla yanaşı, hadisələrin müxtəlif ardıcıllıqla təsvir edilməsi tələb olunur ki, bu da detalların daha dəqiq şəkildə aşkara çıxarılmasına kömək edir. Sözügedən texnika, xüsusilə yaddaşın selektiv fəaliyyətini stimullaşdırmaq və yaddaş bloklanmasının qarşısını almaq üçün effektiv hesab olunur. Yeniyetmələrin psixoloji vəziyyətlərinin qiymətləndirilməsi üçün Lusçer Rəng Testi və ya Raveni Proqressiv Matrisi kimi testlər istifadə edilir. Bu testlər yeniyetmənin emosional vəziyyətini, intellektual səviyyəsini və stresə reaksiyasını təhlil etməyə imkan verir. Layihə əsaslı testlər, məsələn, TAT (Tematik Appersepsiya Testi) və ya Rorschach ləkə testi, yeniyetmələrin daxili dünyasını və gizli emosional problemlərini aşkar etmək üçün geniş tətbiq olunur. Bu testlər ifadələrin emosional fonunu və potensial manipulyasiya hallarını müəyyən etməyə kömək edir. Dindirmə zamanı oyun əsaslı metodlardan da istifadə edilir ki, bu, xüsusilə travmatik təcrübələr yaşayan yeniyetmələrin rahatlamasına və qorxu hissini azaltmasına kömək edir. Qeyri-verbal texnikalar, məsələn, şəkillərin və rəsmlərin izah edilməsi, yeniyetmələrin sözlə ifadə edə bilmədikləri məlumatları təqdim etmək üçün yararlıdır. Psixoloji profilin formalaşdırılması məqsədilə tətbiq edilən sorğu vərəqləri və ifadə strukturlaşdırma üsulları, yeniyetmənin həqiqəti təsvir etmə bacarığını və emosional balansını qiymətləndirmək üçün əhəmiyyətlidir. Müsahibə zamanı qeydə alınan qeyri-verbal siqnallar, jestlər və mimikalar təhlil

edilərək, məlumatların doğruluğu və emosional vəziyyətlər barədə əlavə dəlillər təqdim edir. Səs tonu və nitq sürəti kimi faktorlar da ifadələrin inandırıcılığını qiymətləndirmək üçün xüsusi proqramlar vasitəsilə analiz edilə bilər. Dindirmə prosesində video və audio yazıların aparılması daha sonra verilən ifadələrin obyektivliyini yoxlamaq üçün hüquqi sübut kimi istifadə olunur. Prosesin şəffaflığını təmin etmək və yeniyetmələrin hüquqlarını qorumaq üçün dindirmə zamanı psixoloqların və müdafiəçilərin iştirakı zəruridir. Psixoloji dəstək və neytral münasibət, yeniyetmələrin qorxu və utancaqlıq hisslərini minimuma endirərək ifadəvermə prosesini asanlaşdırır. Mütəxəssislər tərəfindən yeniyetmələrin fərdi xüsusiyyətlərinə uyğun yanaşmaların tətbiq edilməsi onların ifadələrinin etibarlılığını artırır. Beynəlxalq təcrübədə xüsusi hazırlanmış sual-cavab protokollarından istifadə olunur ki, bu protokollar manipulyasiyadan və emosional təzyiqlərdən qorunmaq məqsədilə tərtib edilmişdir. Tətbiq olunan test və metodların əsas məqsədi yeniyetmələrin emosional rifahını qorumaq və onların real hadisələri təsvir etməsinə kömək etməkdir. Yeniyetmələrin yaddaşının qorunması və detalları dəqiq çatdırması üçün fasilələrin verilməsi və sualların uyğun formada yönləndirilməsi mühüm rol oynayır. Həmçinin, travma sonrası pozğunluqların qiymətləndirilməsi və bu hallar zamanı psixoloji bərpa metodlarının tətbiqi dindirmə prosesində təsirliliyi artırır. Ümumilikdə, istifadə olunan testlər və metodlar yeniyetmələrin ifadələrinin obyektiv və hüquqi standartlara uyğun aparılmasını təmin edərək, onların hüquqlarının müdafiəsinə və emosional güvənliklərinə zəmanət verir.

Yeniyetmələrin dindirmə prosesində tətbiq edilən hüquqi mühafizə mexanizmləri, onların hüquqlarının qorunmasını təmin etmək və ədalətli mühakimənin həyata keçirilməsini təmin etmək üçün son dərəcə vacibdir. Bu mexanizmlər, yeniyetmələrin hər hansı bir təzyiq və ya manipulyasiya altında ifadə verməmələrini təmin etməyə yönəldilmişdir. Birinci hüquqi mühafizə mexanizmi, yeniyetmələrə dindirmə prosesinə başlamazdan əvvəl hüquqlarının aydın şəkildə izah edilməsi və onlara ifadə vermək və ya verməmək seçimi verilməsidir. Bu, onların öz iradəsi ilə qərar vermələrini təmin edir və hüquqi prosesin hər addımında onlara tam məlumat verilir. Bununla yanaşı, hüquqi nümayəndə və müdafiəçi hüququ, yeniyetmələrin hüquqlarının qorunmasını təmin edən əsas mexanizmlərdən biridir. Yeniyetmələr, dindirmə zamanı onların tərəfini müdafiə edən bir vəkilin və ya hüquqşünasın iştirakını tələb edə bilərlər. Bu, onların hüquqlarını pozan hər hansı bir hərəkətin qarşısını alır və onların təhlükəsizliyini təmin edir. Həmçinin, yeniyetmələrin dindirmə müddətində istədikləri zaman hüquqi nümayəndələrinə müraciət etmələri və onlardan məsləhət almaları hüquqları daxilindədir. Yeniyetmələrin ifadələrinə manipulyasiya edilməsi və ya təzyiq göstərilməsi halları, dindirmənin etibarlılığını zədələyə bilər və hüquqi sistemə zərər verə bilər. Buna görə də, bütün dindirmə prosedurları yazılı və ya video şəklində qeydə alınmalıdır ki, hər hansı bir təhrif və ya təzyiq halları aşkar edilsin və hüquqi yoxlamalar aparılsın. Yeniyetmənin ifadə verməyə başladığı andan etibarən, dindirmə zamanı tətbiq olunan hər hansı bir təzyiqin qarşısı alınmalıdır. Bu, həm emosional, həm də fiziki təzyiqlərə qarşı bir qoruma təmin edir. Həmçinin, emosional və psixoloji dəstək verən peşəkarların cəlb edilməsi də hüquqi mühafizə mexanizminin tərkib hissəsidir. Bu mütəxəssislər, yeniyetmələrin stress altında olmadan, öz ifadələrini səmimi şəkildə vermələrinə kömək edirlər. Dindirmə zamanı istifadə edilən alətlərin və metodların da hüquqi mühafizə mexanizminə daxil olduğunu qeyd etmək vacibdir. Məsələn, açıq suallar və qeyri-yönləndirici yanaşmalar tətbiq edilməlidir ki, yeniyetmənin ifadələri manipulyasiyaya məruz qalmasın. Hüquqi mühafizə mexanizmlərindən biri də, yeniyetmənin ifadəsinin heç bir şəkildə zorla alınmaması və öz iradəsi ilə iştirak etməsi, onun ifadə hüququnun qorunmasını təmin edir. Əlavə olaraq, dindirmə prosesinin yalnız yetkin və təcrübəli mütəxəssislər tərəfindən aparılması, bu mexanizmin gücləndirilməsi məqsədini güdür. Bu mütəxəssislər, həm hüquq, həm də psixologiya sahəsində təlim keçmiş olmalıdırlar. Hüquqi mühafizə mexanizmlərinin tərkib hissəsi olaraq, yeniyetmənin ifadələrindən yalnız hüquqi məqsədlərlə istifadə edilməsi və şəxsi məlumatlarının qorunması da çox vacibdir. Yeniyetmənin ifadəsi yalnız qanuni çərçivədə və onun razılığı ilə istifadə

olunmalıdır. Beləliklə, bütün bu mexanizmlər bir arada işləyərək, yeniyetmələrin hüquqlarının qorunmasını və onların təhlükəsizliyinin təmin olunmasını mümkün edir, eyni zamanda hüquqi ədalət sisteminin düzgünlüyünü və şəffaflığını təmin edir. [1, səh. 31-41]

## ƏDƏBİYYAT SİYAHISI

1. AR DİN Polis Akademiyası "Dindirmə taktikası" Monoqrafiya. Bakı 2009
2. Sarıclinskaya K.Q və Abbasova İ.S. Kriminalistika:Dərslik– Yenidən işlənmiş, əlavə və dəyişikliklər edilmiş 2-ci nəşri. Bakı, Hüquq Yayın Evi 2021
3. İsmayılov E.A. ***Kriminalistika və təhqiqat metodları***. Bakı: Hüquq Evi, 2019.
4 .Həsənov A.M. ***Cinayət hüququ və kriminalistika: nəzəri və praktiki yanaşmalar***. Bakı: Elm və Təhsil, 2020.
5. Əsədov R.M. ***Psixologiyanın kriminalistikada tətbiqi***. Bakı: Maarif, 2018.
6. Samaha A., ***Criminal Justice: A Brief Introduction***. 11th edition. Belmont: Wadsworth Cengage Learning, 2019
7. Siegel L.J. ***Criminalistics: An Introduction to Forensic Science***. 12th edition. Upper Saddle River: Pearson, 2018.
8. https://sherg.az/arxiv/16814
9. https://www-grandars-ru

**Aferin Ali ABBASOVA**
Western Caspian University,
Associate Professor at the Department of Psychology and Social Work, Ph.D.
E-mail: aferin.abbasova@wcu.edu.az

**Shafiga Ayaz BABAYEVA**
Master's student at the Department of Political Science, Psychology and Social Work, Western Caspian University
E-mail: bshafiga2002@gmail.com

**Summary**

Factors affecting the interrogation of minors are a very complex and carefully approached area from a legal and psychological perspective. The fact that these individuals are still in the developmental stage and their thinking and decision-making abilities are not fully formed requires a special approach to the interrogation process.

Factors such as age, psychological condition, social environment and the presence of a legal representative directly affect their ability to testify and the reliability of the process. Protecting the rights of adolescents during interrogation, providing them with accurate and clear legal information, psychological support and the presence of a defense attorney ensure that the process is conducted correctly and fairly. Social support and family relationships also have a great impact on the process of a teenager giving testimony.

All these factors, taken together, will undoubtedly help make the interrogation process of minors more transparent, fair and effective. The correct conduct of the interrogation process plays an important role in ensuring legal justice and investigating crimes.

**Key words:** interrogation, criminal process, investigative action, psychological process, witness, victim.

**Аферин Ели кызы АББАСОВА**
Доцент кафедры Психологии и Социологии
Западно-Каспийскийкого Университета, доктор философских наук

E-mail: aferin.abbasova@wcu.edu.az

**Шафига Айаз кызы БАБАЕВА**
Магистрант кафедры Психологии и Социальной работы Западно-Каспийского университета
Е-почта: bshafiga2002@gmail.com

## ФАКТОРЫ ВЛИЯЮЩИЕ НА ДОПРОС НЕСОВЕРШЕННОЛЕТНИХ

**Разюме**

Факторы, влияющие на допрос несовершеннолетних, представляют собой сложную правовую и психологическую область, требующую внимательного рассмотрения. Тот факт, что эти лица еще находятся на стадии развития, их способности к мышлению и принятию решений сформированы не полностью, требует особого подхода в процессе допроса.

Такие факторы, как возраст, психологическое состояние, социальная среда и наличие законного представителя, напрямую влияют на их способность давать показания и достоверность процесса. Защита прав несовершеннолетних во время допроса, предоставление им достоверной и открытой юридической информации, психологическая поддержка и присутствие защитника обеспечивают правильное и справедливое ведение процесса. Кроме того, социальная поддержка и семейные отношения сильно влияют на процесс самовыражения подростка.

Все эти факторы в совокупности, несомненно, помогут сделать процесс допроса несовершеннолетних более прозрачным, справедливым и эффективным. Правильное проведение процесса допроса играет важную роль в обеспечении правосудия и расследовании преступлений.

**Ключевые слова:** допрос, уголовный процесс, следственное действие, психологический процесс, свидетель, потерпевший.

**Daxil olub:** 29.10.2024